SƏHƏR GÖRÜŞÜ

XX əsrin sonları "kütləvi sənət"in (yaxud "kutlə üçün sənət"in) artıq sabitləşmiş janrlarını yaratdı: film-dəhşət, roman-kataklizm, triller, vuruş-film ("boyevik"), yaxud vuruş-roman, komiks, fentezi və s.

Oxucudan gizlətmirəm, mən hələ özüm üçün müəyyən etməmişəm ki, bu janrları nəzərdə tutub "kütləvi sənət" deyəndə, biz "sənət" sözünü yerində işlədirik, yoxsa, yox? Yəni söhbət heqiqətənmi sənətdən gedir? Bilmirəm, amma burası da mənim üçün aydındır ki, həmin bu "kütləvi sənət"in də maraqlı nümunələri yaranır. Mənim əlim dinc durmadı və məşhur Margaret Norrisin bir triller-hekayəsini – mənce, xalis "kiç" nümunəsini – müəllifin üslubunu saxlamağa çalışaraq tərcümə etdim.

ELÇİN

Margaret NORRİS

Əvvəlcə ona heç fikir vermirdim. Bu qadın ilə mən Ceyems-stritin kəsişdiyi tində, saatın altında dayanmışdıq, çərşənbə axşamı səhər saat beş idi və biz bomboş küçənin gah o başına, gah da bu başına baxırdıq. Mən Redi gözləyirdim, dostumu. Soyuq idi, Red də ki, gəlib çıxmırdı. Özümü saxlaya bilməyib alimi çiynimdən asdığım qolf çantasına vurdum və Redin qarasına yavaşcadan bir-iki yağlı söz dedim.

–Əsəblərinizi qoruyun, cavan oğlan! – deyə qadının bir az istehzalı, bir az da mehribansayaq səsi eşidildi.

Yaxşıdı də, səhər saat beşdə adamın fikrini oxuyan tapılıb mənimçün! Sərt hərəkətlə çevrilib onu əməlli-başlı süzdüm.

Bu qadının qəribə görkəmi vardı: orta yaşlarındaydı, özü də pota, tviddən balaxon palto geymişdi, köhnə ayaqqabılarının qısa dabanları yeyilmişdi, üstün bunları da cidd-cəhdlə yığdığı dalğavari saçları, səliqə-sahmanla da kirşanlanmış sifəti tamamlayırdı və doğrusu, belə bir səliqə-sahmandan, bu cidd-cəhddən sonra, bu cürə geyinməkdə bir tələm-tələsiklik varıydı. Çox güman ki, qonaq getmək istəyirmiş, amma birdən nəsə bu qadına mane olub və o da alinə düşəni geyinə keçirib, tələm-tələsik də küçəyə çıxıb.

Mənim onunla çərənləməyə həvəsim yox idi. Lənətə gələsən sən!, Red! Harda itib-batmısan?

–Adam gərək səbrli olsun, onda hər şey düzəlir,-deyə qadın nəsihət verməyə başladı və onun səsində yəne bir balaca rişxənd var idi.

Yaxşı də. Bəlkə doğrudan da mən səfehin birinə oxşayıram, səhər saat beşdə qolf çantasıyla burda dayanmışam? Qoy olsun, amma o kimdi ki, mənə rişxənd edir?

Mən küçənin o biri başına gedə bilmirdim, qorxurdum ki, ora getsəm Red məni görməz. Çantanı çiynimdən çıxarıb telefon köşkünün yanına qoydum və bankın giriş qapısına tərəf getdim ki, ona divardan asılmış səhər qəzetlərinin başlıqlarına baxım.

Bu qadın da gəlib yanımda dayandı.

–Televiziyanın axşam xəbərlərində dediler! Karnovendən qaçıb. Manyak qatildir! Bələləri gərək hospitalda istirahətlə məşğul olmasınlar! Onları əmir qəfəsə salmaq lazımdı, ordadı onların yeri, həbsxanada!

–Karnoverdə də dəmir qəfəs var,-deyə etiraz etdim və qadın mənə baxanda: – Yanından keçəndə də görmək olur.- dedim.-Pəncərələrin hamısında dəmir barmaqlıqdı.

–Deməli möhkəm deyil də! Yoxsa ordan qaçmaq olardı? Özü də, məncə, manyakı xəstə adlandırmaq axmaqlıqdı. Qatill-bax budu onun əsil adı!

Biz yanaşı dayanıb xəstəxanadan qaçanın fotosuna baxırdıq. Yağış fotonun üzünü elə yuyub aparmışdı ki, əməlli-başlı bir şey görünmürdü. Elə pırpızaqlı saçları vardı ki, elə bil arvaddı. Çibimdə heç olmasa, beş sent olsaydı, qəzet alıb bütün məqaləni oxuyardım...

–İşə bax də! Qatili tutub elə yerə aparırlar ki, oradan qaçır, bizim də canımıza vəlvələ salır!

Amma belə baxanda, heç qorxan qadına oxşamır... Beləsinin mən cikinə də, bikinə də bələdəm: sən nə deyirsən, de, vecinə deyil, dayanmaq bilmir, elə hey çərənləyir. Özündən də müştəbeh. Məni həmişə cin atına mindirən də elə bələdlərdir.

Başıma gələnlərdən biliræm ki, bu cür görüşlərin axırı nəyə gətirib çıxarır, ona görə də telefon köşkünə tərəf geri qayıtdım və yenə o tərəf-bu tərəfə baxdım. Səbrim tamam tükənmişdi. Bir maşın ötdü, sonra da biri. Hələ yuxudan yaxşı oyanmamış bir işçi də qoltuğunda günorta yeməyi qabağımdan keçib getdi.

Red isə görünmürdü ki, görünmürdü.

Əvvəlcə saata baxdım, sonra da o qadına. Eləcə bankın qapısı yanında dayanıb gözlərini qəzet başlıqlarına zilləmişdi.

Bəlkə onun da cibində beş senti yox idi ki, gedib qəzet alsın?

Çox boz bir səhər açılırdı və ürəkxoşayan heç bir şey görünmürdü. Yenə bankın qapısına yaxınlaşdım və qəzetdə bugün üçün hava haqqında məlumatı oxudum.

"Hava tutulacaq və ara-sıra yağış yağacaq."

Bilirdim ki, belə olacaq... Axı bu Red harda qaldı?

–Darıxmağın mənası yoxdu, cavan oğlan. Birinci avtobus ancaq beş otuzda gələcək.

Elə istəyirdim ağzımı açıb deyim ki, mən avtobus-zad gözləmirəm, amma yaxşı ki, vaxtında özümü elə aldım və susdum.

Yoxsa ki, başlayacaqdı höcətləşməyə, məni də cıxaracaqdı özümdən.

Bu qadın xalamı yadıma salırdı, xalamın işıldayan o özündənrazı gözlərini görürdüm və kin məni boğurdu.

Mənə baxa-baxa:

–Mənə elə gəlir ki, biz sizinlə haradasa görüşmüşük. Sifətiniz mənə tanış gəlir...- dedi.

Deyəsən nə olursa- olsun, mənimlə tanış olmaq istəyir. Qorxdum. Səhəri hirslə, qəzəblə açmaq istəmirdim.

–Siz yaqin hərdən "Bir fincan qəhvə"yə dəyirsiz.-deyə diqqətlə mənə baxdı.-Yüz faiz, sizi hardasa görmüşəm!

İndi başa düşdüm ki, bu qadın niyə belə geyinib – şübhəsiz ki, xörəkpaylayan işləyir. "Bir fincan qəhvə" kafesinə girən kimi, paltosunu, hay-hayı gedib,-vay-vayı qalmış çəkmələrini çıxarıb atacaq bir kənara, iş formasını, ağ tuflilərini geyəcək və o saat da girişəcək işə.

Mən o kafeni tanıyırdım, Ceyms-stritin axırında idi. Hətta bir- iki dəfə orda olmuşdum da, amma xeyli vaxt bundan qabaq.

–Hə,-dedim,-orda oluram.

Bunu ki, belə görürdüm, maraqlanmadığı bir şey yoxdu, cavab verdim ki, bəlkə məndən əl çəkdi...

–Yaxşı ki, dediz, yoxsa bütün günü fikirləşəcəydim ki, sizi harda görmüşəm.

Tində bir adam göründü və bu qadın nəzərlərini indi də ona zilladı. Gözləri bərəldi, ağzı da təəccübdən bir az açıldı, elə bil ki, balaca, məzəli "o" hərfi idi.

Həmin adamın çox gülməli görkəmi var idi. Uzun, lap uzundraz idi, özü də arıq, qəribə də paltar geyinmişdi, elə bil ki, yarmarka artisti idi. Paltosu əyninə gödək idi, qolu az qala dirsəyinə qalxmışdı, gödək şalvarının balaqları ilə uzunboğaz ayaqqabıların arasından da qıpqırmızı yun corabı görünürdü. Sifəti uzunsov idi, dərin qırışları gözlərindən düz ağzınacan uzanırdı. Ağzını açıb üzümüzə gülürdü.

hekayə

–Sabahınız xeyir, əziz dostlar! Necə bilirsiz, sizdən birinizin ürəyini yumşaldıb bir fincan qəhvə üçün on şilling almaq mənə müyəssər olacaq, ya yox?

Qadın dodaqlarını bir-birinə sıxdı və onun sifətinin ifadəsindən başa düşdüm ki, bu adama acı cavab vermək istəyir. Yadıma düşdü ki, depressiya vaxtı qapımızı döyən avaraları başından eləmək istəyəndə xalamın da sifətində belə bir ifadə yaranırdı.

–Niyə o bir fincan qəhvənin pulunu özünüz qazanmırsınız, hə?- deyə qadın buz kimi bir səslə dilləndi.

Artistə oxşayan o adam ciddi bir görkəmlə təzim etdi:

–Özüm? Madam, mən bunu lap axıra saxlamışam. İnsanların əliaçıqlığı, xeyirxahlığı birdəfəlik itib-batandan sonra, mən sizin bu təklifinizə haqda fikirləşərəm. Hələlik isə...O mənə tərəf çöndü.: Dostum, bəs siz, mənə bir balaca yardım edə biləcəksizmi?

–Mən verərdim, amma hayıf ki, hec bir sentim də yoxdur...

–Nə etmək olar?- deyə filosof kimi, təəssüf etdi.- Belə hesab edək ki, bu səhər bizim bəxtimiz gətirmədi. Belə bir sübhçağı gərək yorğan-döşəkdən qalxmayaydım... Əlbəttə yorğan-döşək olsaydı!..-Yenə gülümsədi.

Ona bir şey verə bilmədiyim üçün, ürəyim hayıl-mayıl olmuşdu.

–Sizin kimilərdir bizi biabır eləyən!- deyə qadın böyük-böyük dillədi.-Siz-ə heç nə vermək lazım deyil. Sizi qovmaq lazımdı! Sizin kimilərdir şəhəri pis günə qoyan!

–Madam,- deyə o adam qadını başdan ayağa qədər süzdü.-Bu saat fikrimdə o qədər küçə sözləri var ki, gəl görəsən, amma mən ağzımı açmayacağam.- Və mənə göz vurub çıxıb getdi.

Bundan sonra, qadın özünü elə təhqir olunmuş saydı, elə coşub-daşdı ki, elə bil birdən-birə tvid balaxonu əyninə daraldı. Arvad, elə bil, bu saat partlayacaqdı.

Mən ürəyimi bürümüş qüssə içində o bomboş küçəyə baxırdım və hiss edirdim ki, bu saat coşub-qaynayacağam və orasını da bilirdim ki, bunun axırı mənim üçün neylə qurtaracaq...

"Kaş Red tez gələydi!.. – deyə ürəyimdə Allaha yalvarırdım.-Tez elə, gəl, Red!.. Yəni tapa bilməyəcəksən ki, mən səni harda gözləyirəm?"

Qadın birdən-birə yenə bankın qapısı ağzında asılmış qəzetlərə tərəf qaçdı.

–Bəlkə elə odu... Çirkli, qoca avara... Gör kim mənim kimi təmiz qadınla necə danışır?! Mənimlə, bir tikə çörəyini əlinin zəhmətiylə qazanan adamla! Nə deyirsiz deyin, bu elə Karnovendən qaçan həmin o manyakdı ki, var!

Özümü saxlamağa çalışırdım.

–Məncə elə deyil...

–Sən hardan bilirsən?!

Aman Allah, mənim o xalam da, bax, o vaxt mənim üstümə belə bir səslə çığırırdı...

O səs indiyəcən qulağımdadı: "Axı sən kimsən belə, misgin yetim, sən özünü kim hesab edirsən?!"

Anam öləndən sonra axı niyə məni onun yanına göndərdilər? Niyə göndərdilər ki, onunla yaşayım?

Qadın telefon köşkü tərəfə getdi.

–Bu saat polisə zəng edəcəyəm! Görər, onun başına nə oyun açacağam!

– Yox, belə eləmək olmaz!- dedim.

– Sənə nə dəxli var? Sən niyə mənim işimə qarışırsan?-deyə çığırdı. –Mən ona göstərəcəyəm! Mənimlə belə danışmaq olmaz!-Sonra da əlini çantasına soxdu ki, xırda pul çıxarıb polisə zəng eləsin.

+++

Mən az qala tamam ümidsiz halda yarmarka artistinə oxşayan o adamın ardınca boylandım. Eləcə addımlayırdı, elə bil, bütün dünya vecinə deyildi. Yox, mən imkan verə bilməzdim ki, ona nəsə bir pislik eləsinlər. Bayaq mənə elə bir məhrəmliklə göz vurdu ki, elə bil, bu qadın kimi özündən müştəbeh, küt, vücudundan zəhrimar yağan adamlara qarşı mənimlə ittifaq yaradırdı.

Və birdən küçənin axırında hospitalın furqonu göründü.

Mən bilirdim ki, bu Reddir, mənə kömək eləməyə gəlir. Bu arvadı bir neçə dəqiqə yubandıra bilsəydim... Əlimi onun çiynə toxundurdum.

–Siz...

–Tərbiyəsiz!- deyə çımxırdı, sonra da səsini qaldırdı.- Lənətə gələsən sən!! Sən özünü kim hesab edirsən, misgin gədə?!

Gördüz ki?! Heç bir sözə qulaq asmaq istəmirdi. Mənim xalam da belə idi, o vaxt boğazımı yırtırdım onu başa salım ki, çantasından pulu mən oğurlamamışam, amma,bax, beləcə qışqırırdı, bu arvad kimi.

Redə deyirdim ki, əgər mənə qolf ağacları gətirsələr, hospitalda tamam xoşbəxt bir adam olacağam...

Qolf ağacını dartıb çantadan çıxardım və zərbə ilə arvadın başına vurdum...

Sonra bir də..

Bir də...